# XIII-XV əsr türk poeziyasında formalaşan ilahi və insani eşq mövzusunun Yunus Əmrə yaradıcılığında yeri

**Fəridə Vəliyeva**
*filologiya üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** filol.ü.f.d., dos. İ. Məmmədli,
filol.ü.f.d., dos. H. Nəsibova

**Açar sözlər:** Yunus Əmrə, eşq fəlsəfəsi, fəzilət, xalq ədəbiyyatı, əfsanələr
**Ключевые слова:** Юнус Эмре, любовь, философия, добродетель, народная литература, легенда
**Key words:** Yunus Emre, love, philosophy, virtue, folk literature, legend

İşksuz adem dünyede bellü bilün ki, yokdur,
Her birsi bir nesneye sevgüsi var aşıkdur. (4, 56)

— deyən şairin bu misraları, iç dünyanın, mənəvi aləmin axtarışına çıxan bir araşdırıcının tamamlanmış əsərinin sərlövhəsi kimi səslənir.

Daxili aləmdəki sevgi duyğusunun səmtini, yönünü tapmaq, yaşam eşqinin səbəbini aramaq Yunus Əmrə yaradıcılığının əsas qayəsi olmuşdur. Dünyanın müdrik şəxsiyyətləri sırasında ən mötəbər yerlərdən birini tutan şair öz kamil və parlaq düşüncələrinin önündə ilkin olaraq eşqi görür və dövrünün mütəsəffüf şairləri kimi bu anlayışa daha geniş aspektdən baxır. İnsanın bütün mənəviyyatının başlanğıcında eşq duyğusunun olduğunu vurğulayan şair bəşər övladı olan insanı başqa canlılardan fərqləndirən əsas cəhətlərdən birini də eşq hesab edir.

İşksuzlara virme ogüt, ögüdünden alur degül,
İşksuz adem hayvan olur, hayvan ögüt bilür degül. (4, 83)

Orta əsrin Türk dünyasına paylaşdığı eşq ilə bağlı müdrik fikirlər Ə.Xaqanidən, Nizamidən üzü bəri bütün dahi şəxsiyyətlərin əsərlərində çox geniş şəkildə təcəssüm olunsa da, Yunus Əmrə yaradıcılığında eşqin insanın bütün hisslərini cilaladığını, müqəddəs duyğular axarında üzdürdüyünü, intəhasız, ölçüsüz, qeyri-adi, ülvi hiss olduğunu daha təsirli, qabarıq müşahidə edirik. Onun yaradıcılığında eşq bəsit şüurdan rasional düşüncəyə keçidin körpüsüdür.

Yunus Əmrə dövrünün abu-həvasına uyğun olaraq sufi şairdir, o da bir çoxları kimi ilahi eşq ilə yaşayır. Ancaq o, çoxlarından fərqli olaraq, bu hissi, bu yaşamı son dərəcə güclü ehtirasla qəbul edir. O, eşqi iç dünya ilə son dünya arasında körpü kimi görür və eşq əhlinin məntiqini, hökmünü, qənaətini, məqsədini eşqsizlərin məntiqinə zidd olaraq müqayisə edir. Eşqi paklığın təntənəsi, möhtəşəmliyin qələbəsi kimi qəbul edir.

İşklulər bizden alalar, işksuzlar hod ne bileler,
Kimler ala, kimler vire, ben bir ulu dükkan oldum. (4, 87)

Yunus Əmrənin aləmində ən böyük alimlik aşiqlikdir. Şairin yaradıcılığında bir çoxlarından fərqli olaraq aşiqlər şaxələnir, bir neçə sferaya bölünür. Yəni şair eşqi dar məna

ilə qəbul etmir. Əgər eşqin bir timsalını, əsas tərəfini məcnunluqda görürsə, digər tərəfini batinindəki həqiqətdə, dünyavi aləmin məftunluğunda, tanrı eşqində, vəhdəti-vücudda "mən"in müqəddəs anlamında arayır. Onun düşüncəsinə görə insanı sevmək Allahı sevməkdir, çünki insanı Allahın yerdə təzahür edən bir parçası kimi qəbul edir.

Çalabun dünyesinde yüzbin dürlü sevgi var,
Kabul it kendözüne gör kangısı layıkdur. (4, 56)

Şair sevgini hər kəsin öz qəlbinə uyğun görərək, eşq aləmində kimsənin mənəviyyatına yerləşə biləcək eşq yükü olduğunu qəbul edir. Yəni Məcnunun eşq yükünü hər kəs daşıya bilməz və hər kəsin eşqi də Məcnunun eşqinə bənzəməz. İnsanın böyüklüyünü də bu yükün çəkisi ilə ölçür. Həm də şair sevgini abstrakt məfhum kimi qəbul etməyin fərqinə də varır. Təbii ki, bu da Yunus Əmrə yaradıcılığına şifahi ədəbiyyatdan gələn motivlərdən biridir. Bunu şairin dilinin səlistliyi də təsdiqləyir. A.Gölpinarlı yazır: "Yunusun dili XIII-XIV yüzil Anadolu türkçesinin bir örnegi, divanı ise o dövrün bir hazinesidir"(4-XXXVI).

Leyli i Mecnun benem, şeyda-yı Rahman benem,
Leyli yüzin görmege Mecnun olasım gelür. (4, 60)

Burada şair el arasında işlənən "Leyliyə Məcnunun g özü ilə bax" xalq məsəlini nəzmə çəkir. Və ən maraqlı orasıdır ki, şair bu anlayışı elə bu cür də qəbul edir. Məlumdur ki, Leyli-Məcnun əsasən Şərq xalqları arasında geniş yayılmış bir əfsanədir. Şair bu mənbədən, demək olar ki, yaradıcılığının bütün mərhələlərində yetərincə istifadə edib, nümunələr verir. Xalq ədəbiyyatından gətirdiyi bu ünsürü özünün eşq fəlsəfəsinə sanki açar edir:

Leyliyle Mecnun işi acebdür bu halka,
Abdürrazak terkitdi ışk içün imanını. (4, 199)

Yunus Əmrə saf, təmiz məhəbbətin mənəvi qələbəsini şərh etməyə can atmaqla xəyanəti, vəfasızlığı, mərhəmətsizliyi, dünya nemətlərinə hərisliyi pisləmək, insanları ruhən sağlamlığa çağırmaq istəmişdir. Şairin eşq aləmində gördüyü bu məziyyətləri əsla birtərəfli qarşılamaq olmaz. Hələ intibah dövründən başlayaraq bir çox filosofların məhəbbətin bütün fəzilətlərin əsasında durduğu nəzəriyyəsini xatırlasaq, qədim yunan filosofu Platonun "Ziyafət" dialoqunda məhəbbəti müdrikliklə fəzilətin qovuşması fikrini yadımıza salsaq (1, 111), Yunus Əmrənin son dərəcə haqlı bir ideyanın carçısı olduğunu təsdiq edə bilərik. Şairin sufi görüşlərinə görə, eşq insanı hiylədən, məkr və paxıllıqdan qoruyur. Əslində isə bütün hallarda düşünmək olar ki, böyük sevgisi olan insanın qəlbində mənfi işartılara yer qalmaz və bu baxımdan fəzilətin ən birinci yaradıcısı eşqdir. Sufi baxışlara gəldikdə isə insan yalnız təmizləndikdən, saflaşıb müqəddəsləşdikdən sonra tanrıya yaxınlaşa bilər, qovuşub bütövləşər.

Yunus Əmrə özünün eşq aləmini vəcd halında görür, yəni o, məhdud düşünülən məcralara sığmır. Vəcddəki ideallaşmanı, ilahiləşməni bütün varlığı ilə duyur. Onun xəyal qartalı qəbul etdiyi gerçəkliyin dərinliyinə can atır. Eşqində dürüstlüyünü, təbiiliyini axtarır. O, dünyanı hədsiz bir həssaslıqla duyur. Şairin fəlsəfi düşüncələri sevgi mənbəyinin nəticəsi olaraq tamamlanır. Bu mənbə isə könüllərdir. Ədalət, insana hörmət, qəlb qırmamaq və nəhayət, eşq kimi məziyyətləri könüllərdə axtaran şair təsadüfi deyil ki, tanrını da insanın könlündə görür.

Şairin ilahi eşqin tərənnümündə bədii təfəkkür təsəvvürlərlə müqayisəyə girir və eşq

aşiqin fəryadı kimi təsvir olunur.

Dost senün ışkun okı key katı taşdan geçer
İşkuna düşen kişi canıla başdan geçer. (4, 157)

Şairin nəzərində eşq insanın mənliyini, yeri, göyü, dünyanı unutdurur, yəni insanı adilikdən çıxarır, onda yeni baxış yaradır.

Senün ışkun beni benden alupdur
Ne şirin derd bu dermandan içeri. (4, 201)

Eşqin, bəsitlərin nəzərində əcaiblik, yanlışlıq təsəvvürü, aqillərin nəzərində isə müdriklik, böyüklük duyğusu aşıladığını təsdiq edən şairin baxışında eşqdə mənəvi ayrılıq yoxdur, çünki eşq insanın batinindədir. O, aşiqlərdə təsdiq olunan vəhdət görür və bu, əslində cismani vəhdəti rədd edən qeyri-adi mənəvi qovuşmadır.

Yunus Əmrənin eşq fəlsəfəsində hər şeydən təcrid olunmaq dərəcəsi də var və artıq bu dərəcədə ehtizaz səviyyəsi yaranır. Bu möhtəşəmlik zamana belə sığmır. Artıq burada şairin fikri ilə desək, ilahiləşmə, təmizlənib müqəddəsləşmə zümrəsi başlayır.

Yalancılık eylemegil, ışka yalan söylemegil
Bunda yalan söyleyenün anda yeri zındandadur. (4, 160)

Xalq ədəbiyyatı ənənəsi ilə yazıb-yaradan Türk xalqının sufi şairinin eşq ilə bağlı hər misrasında adi duyğu yox, tüğyan edən ürək, qeyri-adi coşqunluq yaradan vəcd, heyrət tərənnüm olunur. Sevgi dünyanı əvəz edən ecazkar varlığa çevrilir.

Muştulanuz aşıklara bu ışk ulu devlet olur,
İşk kime kim degdiyise canında bil işret olur. (4, 62)

Yunus Əmrənin yaradıcılığındakı bu təsvirlər böyük Türk dünyasının fəlsəfi poetik ənənələri üzərində ucalmış dahiyanə bir abidədir. Şairin nəzərində sevgi dünyası pillələr dünyasıdır, aşiqlik bu dünyanın sonuncu pilləsidir.

Səkkiz uçmaq aşiqlərə köşkü saraydır bilənə,
Musiləyin heyran olub Tur tağında qalan bənəm. (4, 40)

— deyən şair bəzən aşiqləri dünyanın yeddi qatından da yüksəkdə görür. Özünü isə Tur dağının başında, nisbətən aşağıda, o zirvəyə çatmağa can atan kimi təsəvvür edir.

İşkun dine şur eyler aslana zencir eyler,
Katı taşı mum eyler yoxsa Ferhad sen misin (4, 113)

Şair heç bir ifadəni təsadüfi işlətmir. Onun eşq fəlsəfəsində hər bir sözün öz yeri, öz mənası, öz çaları vardır. Burada "qatı taşı mum eylər" ifadəsini də müəllif qafiyə xatirinə verməmişdir. Könülləri oxşamaqla fəzilətlərin törədicisi rolunu oynaya bilən məhəbbətin əlacsız xəstələrə şəfa vermək, hətta bir çox qəbahətləri xarakterlərdən çıxarıb ataraq insanları

mülayimləşdirən ilahi qüvvəyə malik olduğunu pifaqorçu filosofların nəzəriyyəsi də təsdiqləyir. (1, 112) Hətta ingilis materialisti Hobbs da məhəbbət və nifrət hisslərinin fəzilət və qəbahətə böyük təsirindən danışarkən "təbii məhəbbət" adlandırdığı bu hissi fəzilətlərin yaradıcısı kimi vurğulamışdır. (1, 113)

"İnsan insana allahdır" – deyən məşhur L.Feyerbax da öz oxucularına müraciət edərək yazırdı: "Sev, lakin həqiqi məhəbbətlə sev! Onda bütün qalan fəzilətlərə də sahib olacaqsan". (1, 117)

Yunus Əmrənin də əsas məqsədi insanlarda müsbət ideal fəzilətlər görmək idi. O, sevginin bütün çalarlarını vacib bilirdi və ilahi eşq kimi qiymətləndirirdi. Mütəsəvvüf bu eşqdə təmizlənib tanrıya qovuşma məqamını axtarırdı. Şairin araşdırıcılarından biri olan Səlim Yagmur yazır: "Yunus insanları dostluğa, bir-birilərini anlamağa, bir-birilərinə zülm etməməyə, fani dünyaya bel bağlamamağa, sulha, sükuna ve islamın bildırdığı kaideler çerçevesinde heyatı yaşamağa çağırır" (6-20).

Yunus Əmrə eşq dünyasının tərənnümündə təkcə "Leyli və Məcnun" əfsanəsinin məğzi ilə kifayətlənməmiş, o, Fərhadla Şirin arasındakı məhəbbətlə yanaşı, Xosrov və Şirinin də eşq macərasının fərqinə vararaq, bu aşiqlərin fərqli və oxşar məziyyətləri ilə bərabər yeri-göyü titrədən, daşqın seli kimi çağlayan eşqin vəhdətinə, mənəvi qovuşma çalarına, eşqin aliliyinə də diqqətlə yanaşmış və poeziyasına gətirmişdir.

Ferhad bu ışk yolında başın külünge tutdı,
Husrev Şirin derdinden dosta virdi canını. (4, 198)

Bu cür misalları yetərincə qafiyələrə uyğunlaşdıran şair öz poeziyasında şifahi ədəbiyyatdakı bütün aşiq obrazlarına müraciət etmişdir. Tərəddüd etmədən demək olar ki, folklorda xüsusilə fərqlənən gül və bülbül obrazları şairin əsas hədəfi olmuşdur.

Halvetlerde meşgul olam daim açılam gül olam,
Dost bagında bülbül olam ötem hey dost diyi diyi. (4, 205)

Şifahi xalq ədəbiyyatının aşıq yaradıcılığında elə bir poeziya nümunəsinə rast gəlmək olmaz ki, orada gül və bülbülə aid aşiqanə qoşma, gözəlləmə, oxşama olmasın. Təbii ki, bütün bunların hamısının əsas mayası gül və bülbüllə bağlı əfsanələrdən götürülüb. Folklorşünas Sədnik Paşayevin bu mövzu ilə bağlı əllidən çox əfsanə toplusu var ki, onların da əksəriyyəti təkcə gül ilə bülbülün eşqindən bəhs edir. (3, 130; 218) Təsadüfi deyil ki, Yunus Əmrə yaradıcılığına da həmin mövzu folklordan süzülmüşdür.

Yunus er nazarında taze güller açılmış,
Gerçek er bülbül ise nazarda ötmek gerek. (4, 171)

Eşqin böyüklüyünü daha çox bülbülün gülə olan saf məhəbbəti meyarında görən şair təmiz, ülvi hissləri də onların timsalı mövqeyindən tərənnüm edir. Yunus Əmrənin böyüklüyü ondadır ki, təmiz məhəbbətin mənəvi qələbəsini bəşəri ideyalarının şərhi ilə açmağa çalışır, insanı alçalmağa vadar edən hərisliyi, tamahkarlığı pisləyir, vədinə, vəfasına xilaf çıxanların, sədaqətdən, ədalətdən və mərhəmətdən uzaq olanların mənəviyyatsızlığını göstərib şərh edə bilir.

Aşiqlərin sözindən, qan-yaş aqar gözündən,
Bülbüllər söyləşicək növbət dəğməz turraca. (4, 256)

Belə anlaşılır ki, vəfalı aşiq bülbülün tökdüyü göz yaşlarından başqasının ağlamağına, naləsinə macal yoxdur, bunun səbəbi isə bülbülün eşq yükünün ağırlığı, böyüklüyüdür. Şairin elə təkcə bu iki misrasında böyük bir əfsanənin qayəsi açılır. Bülbül bir aşiq kimi vəfalıdır, sədaqətlidir. O, əhdinə xilaf çıxmayan bir aşiqdir, onun naləsi daha təsirlidir.

Münkir kişi tuymaz bunı derdlülerün sizer canı,
Ben ışk bagı bülbüliyem ol bagçeden geldüm ahi. (4, 141)

Şair bəzən "ağla bülbülüm, ağla" deyərək, özü də bülbülün nakam məhəbbətinə qoşulub nalə çəkir. Ancaq onun məhəbbəti daha çox ilahi eşqiylə ilgilidir. Özünü başqa aləmdə, fərqli dünyada təsəvvür edən şair xudpəsəndləri, vəfasızları çox dəhşətli görür. Ona bu cür simalar qəribə gəlir, yad təsir bağışlayır.

Bülbül olubanı ötem ey nice gönüller güdem
Yüzüm ışkıla dem-be dem topraga sürem yüriyem
Bülbül olubanı ötem gönül olam cesed tutam
Başumı elüme alup yolına virem yüriyem (4, 180)

Araşdırmalar nəticəsində bu qənaətə gəlirik ki, Yunus Əmrə yaradıcılığı bütövlükdə xalq hikmətidir, özü isə təmiz, ülvi ideyalar carçısıdır. Şairin bütün yaradıcılığı boyu xalqın zəka xəzinəsinə tapındığı bir daha aydın görünür.

**Məqalənin aktuallığı.** Məqalədəki fikirlər klassik ədəbiyyatımızın, milli-mənəvi dəyərləimizin öyrənilməsi baxımından aktualdır.

**Məqalənin elmi yeniliyi.** Bu məqalədə həm Yunus Əmrə yaradıcılığında eşq, həm də folklor ünsürləri ilk dəfə araşdırılır və bu mövzu başqa türk soylu xalqların ədəbiyyatında bu səkildə ayrıca bir tədqiqat əsəri kimi işlənməmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu mövzu bütün ədəbiyyatçılar və ali məktəblərin filoloji sahədə təhsil alan tələbələri, magistrantları üçün əhəmiyyətli mənbədir.

## Ədəbiyyat

1. Göyüşov Z. Fəzilət və qəbahət. Bakı, Azərnəşr, 1972. Səh. 471.
2. Nizami Gəncəvi. Xəmsə. Nüşabə Araslı Bakı, Turan, 2002. Səh. 310.
3. Paşayev S. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı, Azərnəşr, 2009. Səh. 442.
4. Yunus Əmrə. Risalat al-Nushiyya ve Divan. Abdülbaki Gölpinarlı. Sülhi Garan Matbaası. İstanbul 1965. Səh. 310.
5. Yunus Əmrə. Divan. Cəlal Bəydili. Bakı, Nafta-Press, 2004 səh. 310.
6. Yunus Emre. Divan. Selim Yagmur. İstanbul, Dergah Yayınları, 2008 səh. 427.
7. Yunus İmrə. Güldəstə. Müzəffər Şükür Məchul. Bakı, Yazıçı,1992 səh. 230.

**Ф. Валиева**

## Место темы божественной и человеческой любви формированном в турецкой поэзии XIII-XV веке в творчестве Юнуса Эмре

### Резюме

В статье под названием "Любовь в народной литературе и Юнус Эмре" помимо расследования взгляда Юнуса Эмре так же, проанализирована применение и использование поэтом сокровищ народной мудрости о любви.

**F. Valiyeva**

## The role of God love and humans love which formulated in XIII-XV century in Yunus Emre literary creativity

### Summary

In an article titled "Love in the folk literature and Yunus Emre" addition to investigating glance of Yunus Emre also analyzed the application and use of the poet treasures of folk wisdom about this feeling as well.

**Redaksiyaya daxil olub:** 19.09.2018